TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

## ƏTRAF MÜHİT VƏ TƏBİİ EHTİYATLAR KOMİSSİYASI

## BİRİNCİ TOPLANTI

## TÖVSİYƏ QƏRARI

## TÜRKDİLLİ ÖLKƏLƏRDƏ SƏHRALAŞMAYA QARŞI MÜBARİZƏ

Səhralaşmanın TürkPA üzvü ölkələrinin uğurlu sosial-iqtisadi inkişafına əsas təhlükə yarada biləcək ən ciddi ekoloji və sosial-iqtisadi problemlərdən biri olduğunu ***nəzərə alaraq,***

Üzv ölkələrdə səhralaşmanın yayılması və intensivləşməsi, və bunun nəticəsində insanların zərər çəkməsi, iqtisadi, maliyyə itkiləri və sosial problemlərdən ***narahat olaraq,***

Beynəlxalq ictimaiyyət tərəfindən metodoloji, texniki və maliyyə yardımı əldə edilməsi üçün dəyərli imkan yaradan və bu yardım vasitəsilə səhralaşmaya qarşı mübarizəyə təkan verən mühüm komponent kimi regional əməkdaşlığın rolunu ***qəbul edərək,***

Təhlükə altında olan ekosistemlərin qorunması və yoxsulluğun aradan qaldırılması sahəsində müvafiq həll yollarını tapmaq üçün TÜRKPA üzv ölkələrində yaranan torpaq deqradasiyasının əsas aspektlərini müəyyən etmək və onların şiddətini ölçməyin zəruri olduğundan ***xəbərdar olaraq,***

**Parlament Assambleyası** TÜRKPA üzv ölkələrinin milli parlament və hökumətlərinə **tövsiyə edir:**

a) məsələ ilə bağlı düzgün məlumatın təmin edilməsi və insanların ətraf mühitə olan dost münasibətinə töhfə verilməsi məqsədilə ictimaiyyətin məlumatlılığının artırılması üçün üzv ölkələrdə "səhralaşmadan qorunma mədəniyyətini" ***yaratmaq***;

b) beynəlxalq standartlara uyğun olaraq ətraf mühitin qorunması, o cümlədən səhralaşmaya qarşı mübarizə sahəsində ətraf mühit üzrə qanunvericiliyin ***uyğunlaşdırılması***;

***c)*** praktiki (metodoloji) eksperimental və təqdimat (informasiya-reklam) məqsədləri üçün müvafiq konvensiyalar üzrə pilot layihələrin ***həyata keçirilməsi***;

d) müvafiq milli fəaliyyət proqramları çərçivəsində üzv ölkələrdə lazım olan müxtəlif meşə ilə bağlı layihələr ***yaradılması və həyata keçirilməsi***;

e) üzv ölkələrdə dövlətə məxsus yay və qış otlaqlarının inventarizasiyasının ***həyata keçirilməsi.*** Bu proses nəticəsində torpaqların vəziyyətini müəyyənləşdirmək mümkündür və bu vəziyyətə uyğun olararaq mövcud problemlər öz həllini daha düzgün və asan şəkildə tapa bilər;

f) bitki örtüyünün ***qorunması.*** Torpağın külək və su eroziyasından qorunması üçün bitki örtüyünün saxlanması səhralaşmaya qarşı əsas profilaktik tədbirdir. Düzgün saxlanılan bitki örtüyü də quraqlıq zamanı ekosistem xidmətləri itkisinin qarşısını alır;

g) əsasən səhralaşmadan əziyyət çəkən regionlarda onların tətbiqi üçün yerli uyğun müasir texnologiyalardan ***istifadə etmək***;

h) səhralaşma prosesinin qarşısının alınmasına gətirib çıxaracaq müxtəlif infrastruktur obyektlərinin yaradılaraq bu sahələrin ümumi mənzərəsinin dəyişilməsi üçün üzv ölkələrin şəhər və kənd mərkəzlərində quraq bölgələr üçün iqtisadi imkanlar ***yaratmaq***;

i) torpaqlardan səmərəli istifadəyə yönəlmiş, ekspertlər və fermerlərin birgə işinə yardım edəcək Aqroekoloji Məsləhət fəaliyyətlərinin ***təşkil edilməsi***;

j) informasiya və təcrübə, təlim və birgə tədqiqat proqramlarının mübadiləsi kimi sahələrdə regional əməkdaşlığın ***gücləndirilməsi***;

k) səhralaşma ilə mübarizədə institusional çərçivənin təkmilləşdirilməsi və qeyri-hökumət sektorunun daha fəal iştirakı ilə potensialın artırılması tədbirlərinin ***inkişaf etdirilməsi***;

l) ətraf mühitin qorunması, o cümlədən səhralaşma ilə mübarizə daxil olmaqla müxtəlif sahələrdə birgə fəaliyyət üçün TÜRKPA üzv ölkələrinin iştirakı ilə regional instrumentlərin hazırlanması üzrə müzakirələr ***başlatmaq***, və TÜRKPA çətiri altında əməkdaşlıq müzakirələrinin gücləndirilməsinə həsr olunan konfrans və ya forum ***təşkil etmək***;